

**FUAD ƏLƏSGƏROV,**
Azərbaycan Respublikası Prezidentinin
İcra Aparatının şöbə müdiri

# HEYDƏR ƏLİYEV AZƏRBAYCANDA HÜQUQİ DÖVLƏTİN BANİSİ, İNSAN HÜQUQ VƏ AZADLIQLARININ TƏMİNATÇISIDIR

Tarixin bəzi taleyüklü məqamlarında, xüsusən keçid mərhələlərində bir çox insanların, bəzən isə bütün cəmiyyətin inkişaf yolunun müəyyənləşməsi, hüquq və azadlıqlarının müdafiəsi yükü bir şəxsin çiyinlərinə düşür. Belə zamanlarda həmin şəxsiyyətin müdrikliyi, qətiyyəti və təcrübəsindən bütöv bir xalqın, ölkənin gələcəyi asılı olur.

Belə keçid mərhələlərindən biri də XX əsrin axırlarına təsadüf etdi. Həmin dövrdə bir çox sosialist ölkələrində, o cümlədən keçmiş SSRİ-yə daxil olan respublikalarda totalitar əsaslara arxalanan inzibati-amirlik, ciddi mərkəzləşdirilmiş sistemdən liberal-demokratik, insan hüquq və azadlıqlarının təsdiqi və müdafiəsi recimінə keçidə zərurət yaranmışdı. Belə bir şəraitdə Azərbaycan xalqı da dövlət müstəqilliyinin bərpası, öz hüquq və azadlıqlarının müdafiəsi uğrunda mübarizəyə qalxdı. Azərbaycanın müstəqil dövlət kimi yaşaması çox zəngin və qədim tarixə, minillərlə müstəqil yaşamaq və qüdrətli dövlətçilik ənənələrinə malik olan bir xalqın oyanışı demək idi. Bunu hiss edən totalitar sovet dövləti xalqın azadlıq mübarizəsinə özünə xas olan üslubda – qan axıdılması, haqq səsinin boğulması, insan hüquq və azadlıqlarını tapdalayaraq silahlı qüvvələrin Azərbaycana qanunsuz yeridilməsi ilə cavab verdi. Bir tərəfdən sovet dövlətinin o vaxtkı rəhbərliyinin respublikamıza ögey münasibəti, digər tərəfdən həmin dövlətin rəvac verdiyi və «Böyük Ermənistan» xülyası ilə yaşayan separatçı qüvvələrin ərazi iddiaları ilə üzləşən Azərbaycan xalqının müdafiəsinə bu xalqın müdrik oğlu, dünya miqyaslı şəxsiyyət Heydər Əliyev qalxdı. Sovet dövlətinin o vaxtkı rəhbərliyi və onun Azərbaycandakı canişinləri tərəfindən möhtərəm Heydər Əliyevin xalqdan təcrid edilməsinə hər vasitə ilə cəhd göstərilməsinə baxmayaraq, bu dahi şəxsiyyət həmişə olduğu kimi, xalqın bu çətin günündə də onun hüquqlarının müdafiəsi üçün öz səsini ucaltdı.

Həmin dövrdə mənfur düşmənin təcavüzünə respublikamızın o vaxtkı rəhbərliyinin səriştəsizliyi ucbatından layiqli cavab verilməməsinin nəticəsi olaraq xalqımız qorxunc fəlakət, vətəndaş qarşıdurması həddinə çatmışdı. O vaxtkı iqtidarın həyata keçirilməsi mümkün olmayan vədlər sayəsində hakimiyyəti ələ keçirməsi, xalqdan uzaq düşməsi, sosial bazasının olmaması səbəbindən onun utopik



ideyalara arxalanan dövlət siyasəti də mütləq iflasa uğramalı idi. Torpaqların bir hissəsinin itirildiyi, iqtisadiyyatın tənəzzülə uğradığı, müstəqilliyin əldən getməsinin, ölkə ərazisinin parçalanması prosesinin az qala reallaşdığı, xalqın hüquqlarının tapdalandığı, zorakılığın baş alıb getdiyi, əhalinin vahimə içərisində yaşadığı bir zamanda xalq dövlət sükanını siyasət dahisi, zəngin dövlətçilik təcrübəsi olan müdrik oğlu Heydər Əliyevə etibar etdi.

Hələ sovet dövlətinin tərkibində olan Azərbaycana rəhbərlik etdiyi zaman xalqın layiqli oğlu Heydər Əliyev o dövrdə mümkün olan bütün imkanlardan məharətlə istifadə edərək Azərbaycanın gələcək müstəqilliyinin möhkəm bünövrəsini qoymuş, ölkənin iqtisadiyyatını inkişaf etdirmiş, sənaye potensialını artırmış, xalqın dilini, mədəni irsini, adət-ənənələrini qorumuş, həyat səviyyəsini xeyli yaxşılaşdırmışdı. Bütün həyatı boyu xalqa xidmət etdiyinə, onun etimadını şərəflə doğrultduğuna görə qədirbilən Azərbaycan xalqı möhtərəm Heydər Əliyevə olan sarsılmaz inamını qətiyyətlə ifadə edərək xilas yolunu yalnız onda gördü, çətin anda onu özünə rəhbər, Prezident seçdi. Xalq misilsiz siyasi məharəti, iti zəkası, sarsılmaz iradəsi olan möhtərəm Heydər Əliyevi həmişə öz lideri kimi görmüş, öndərliyi ona etibar etmişdir. 1993-cü ilin 15 iyun tarixi haqlı olaraq Azərbaycan xalqının salnaməsinə Milli qurtuluş günü kimi həkk olundu. Xalqın çağırışı ilə möhtərəm Heydər Əliyevin qayıdışı həm də Azərbaycan xalqının qədim «Dədə Qorqud» eposunda əks olunmuş köklərinə, adət-ənənələrinə, ümumbəşəri dəyərlərə qayıdışı idi.

Azərbaycan tarix boyu bir çox böyük dövlətlərin maraq dairəsində olub. Qədim İpək yolunun bizim ərazidən keçməsi hələ qədim dövrlərdə ölkəmizi Şərqlə Qərb arasında körpü etmişdi. Ona görə də tarixin bütün dövrlərində həmin dövlətlər Azərbaycanda nüfuz dairəsi uğrunda mübarizə aparmışlar. Bizans imperiyası ilə Ərəb xilafətinin, Avropa dövlətləri ilə Osmanlı imperiyasının, ingilislərlə rusların Azərbaycanda möhkəmlənmək uğrunda apardıqları gizli və açıq mübarizələr deyilənlərə sübutdur. Azərbaycan xalqının böyüklüyü ondadır ki, tarixin hər bir çətin anında öz igid oğullarının qəhrəmanlığına və müdrikliyinə arxalanaraq tarixin bütün sınaqlarından çıxmışdır. Ərəb xilafəti ilə Bizans imperiyası arasındakı ixtilafdan məharətlə istifadə edən alban hökmdarı Cavanşir öz dövlətinin nisbi müstəqilliyini saxlaya bilmişdi. Səfəvilər dövlətinin banisi Şah İsmayıl Xətainin sərhədləri genişləndirərək vahid Səfəvilər dövlətini yaratmaqda tarixi rolu əvəzsizdir. XX əsrin ikinci yarısında - XXI əsrdə isə dövlətimizin inkişafı möhtərəm Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilmişdir və o, xalq tərəfindən onun üzərinə qoyulmuş bu tarixi missiyanı şərəflə yerinə yetirir. Müasir Azərbaycan üçün mühüm olan bu zaman kəsiyində artıq bir neçə nəsil yetişərək formalaşmışdır. Bu tarixi proseslərin hamısı real olaraq onların gözləri qarşısında, özlərinin iştirakı ilə baş vermişdir. Bütün ömrünü xalqına həsr edən möhtərəm Heydər Əliyevin tarixi xidmətlərini gələcək nəsillər heç vaxt unutmayacaqlar. Xalq arasında da əbəs yerə deyilmir ki, gələcəyin yaxşı memarları - dünənini unutmayanlardır.

Hamı tərəfindən etiraf olunur ki, Azərbaycanın dövlət müstəqilliyinin etibarlı əsasları cənab Heydər Əliyevin bilavasitə rəhbərliyi altında, onun dühası, qətiyyətli siyasəti və dövlətçilik təcrübəsi nəticəsində yaradılıb.

Möhtərəm Heydər Əliyevin xalqımızın önündə, tariximiz qarşısında ən böyük xidməti budur ki, o, torpaqlarımıza yiyələnmək üstündə ən kəskin geopolitik ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycanın dövlətçiliyini qorudu, ölkənin varlığını parçalanıb yox olmaq təhlükəsindən xilas etdi, bununla da Azərbaycan xalqının ən ümdə hüququ olan yaşamaq hüququnu təmin etdi.

Müstəqil dövlətimizin ölçülüb-biçilmiş və dərin elmi-təcrübi dayaqlara söykənən siyasi, iqtisadi, hüquqi və beynəlxalq əsaslarının yaradıcısı və qurucusu da məhz möhtərəm Prezidentimizdir. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra ölkəmiz demokratik, hüquqi dövlət quruculuğunu özünün inkişaf yolu seçdi. Lakin əvvəlki totalitar recimdən qalan hüquq sistemi və qanunlar insan hüquq və azadlıqlarının müdafiəsinə, qanunun aliliyinin təmin olunmasına, demokratik və azad cəmiyyətin qurulmasına maneçilik törədirdi. Cəmiyyətimizin gələcək inkişafı, insan hüquq və azadlıqlarının təmin edilməsi üçün tamamilə yeni hüquq və məhkəmə sisteminin qurulması, mütərəqqi və demokratik dəyərlərə əsaslanan qanunvericilik bazasının yaradılması zəruri idi.

Ölkəmizin müharibə şəraitində olması, xalqımızın sülh hüququnun pozulması bütün bu tədbirlərin həyata keçirilməsinə ciddi əngəllər törədirdi. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev sülh hüququnun bütün dünyada bərqərar olunmasının təşəbbüskarlarından biridir. Dünya miqyaslı siyasətçilərdən olan möhtərəm Heydər Əliyevin sulh hüququ haqqında dərin fəlsəfi fikirləri diqqəti xüsusilə cəlb edir. Belə ki, 1997-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin YUNESKO-nun Baş Direktoruna məktubunda sülhün iki – daxili və beynəlxalq aspektləri əks etdirilmişdir. Beynəlxalq aspektdə sülh bir tərəfdən dövlətlər arasında müharibələrin olmaması, digər tərəfdən isə xalqlar arasında qarşılıqlı hörmətə, etibara əsaslanan münasibətlərin mövcudluğu deməkdir. Daxili aspektdə isə sülh məfhumu «vətəndaş sülhü» mənasını daşıyır ki, bu da vətəndaşların öz aralarında və vətəndaşlarla dövlət hakimiyyəti arasında münasibətləri ehtiva edir. Buna görə hər bir insanın sülh hüququ həm təhlükəsiz yaşamaq hüququ, həm də dövlətin idarə edilməsində fəal iştirak etmək və dövlətin daxili və xarici siyasəti haqqında dolğun və obyektiv məlumat almaq hüququ olduğu deməkdir.

Bu bir həqiqətdir ki, insanların hüquqlarını kütləvi şəkildə pozan başlıca amil müharibədir. Müharibə zamanı insanların əsas hüququ – yaşamaq hüququ pozulur, onların yaşadıqları yerlər dağıdılır, mədəni sərvətlər məhv edilir, insanlar öz yurdlarından didərgin düşür və böyük faciələrə düçar olur. Sülh olmadan insan hüquqlarına tam riayət olunması mümkün deyil. Bu səbəbdən Azərbaycan Respublikası öz sülhsevər siyasəti ilə sülh hüququnun hər iki – həm beynəlxalq, həm də daxili aspektlərini təmin edərək, 1994-cü ilin may ayından atəşkəsin əldə olunmasına, ölkədə siyasi sabitliyə, qanunsuz silahlı dəstələrin ləğvinə, vətəndaş həmrəyliyinə nail olmuş və Ermənistanla münaqişəni sülh yolu ilə həll etmək niyyətində olduğunu bəyan etmişdir. Bununla yanaşı dövlətimiz işğal olunmuş ərazilərin bütün mümkün vasitələrlə azad edilməsi və əzəli torpaqlarımızda demokratiya bayrağının ucaldılması əzmindədir.



Məhz dövlətçiliyimizin möhkəmləndirilməsi, sabitliyin yaranması insan hüquq və azadlıqlarının müdafiəsinə yönəlmiş yeni hüquq sisteminin bərqərar olması üçün real şərait yaratdı.

Respublikamızda islahatların həyata keçirilməsi, hüquq sisteminin yenidən qurulması üçün hər şeydən əvvəl yeni konsepsiya işlənib hazırlanmalı idi. Bu konsepsiya azad cəmiyyətin formalaşmasına, demokratik, hüquqi dövlət quruculuğuna, qanunun aliliyinin təmin olunmasına, müstəqil ədalət mühakiməsinin həyata keçirilməsinə, bununla da insan hüquq və azadlıqlarının müdafiəsinə təminat yaratmalı idi.

Tarix boyu insanları ədalətli, hüquqi dövlət quruculuğu ideyası düşündürmüşdür. Bu fikirlər hələ qədim yunan filosofları Aristotel, Platon tərəfindən irəli sürülmüşdü. Antik dövrdən bu günə kimi bir çox mütəfəkkirlər onların azadlıq, bərabərlik, qanunçuluq və demokratiya haqqında baxışlarına uyğun gələn dövlət quruculuğu problemləri ilə maraqlanmışlar. Hüquqi dövlət ideyasının əsasında ayrılmaz, təbii hüquqlara malik olan müstəqil şəxsiyyət ideyası dayanır. Hüquqi dövlətdə dövlət hakimiyyəti və şəxsiyyət arasındakı qarşılıqlı münasibətlər digər cəmiyyətlərlə müqayisədə prinsipial surətdə fərqlənir. Belə ki, totalitar dövlətdə şəxsiyyət, cəmiyyət və xalq hakimiyyətin siyasi aparatı olan dövlətə qarşı durur, ondan kənarlaşdırılır. Bu zaman dövlətə tamhakimiyyətlilik, hüquqla məhdudlaşdırılmama, dövlətin cəmiyyətdən asılı olmaması, vətəndaşın dövlət orqanlarının və vəzifəli şəxslərin özbaşınalıq və zorakılığı qarşısında acizliyi xarakterikdir.

Bundan fərqli olaraq, hüquqi dövlət – demokratiya, humanizm, insan hüquqları, siyasi və iqtisadi azadlıqlar kimi fundamental ümumbəşəri bir sərvətdir. Hüquqi dövlət cəmiyyətin bütün seqmentlərinə siyasi həyatda iştirak etməyə bərabər hüquqi imkanlar açır və hər bir fərdin hüquqlarını təmin edir.

Demokratik dövlətin əsas əlamətləri orada əsas dövlət orqanlarının seçkili olmasıdır. Yəni hakimiyyət daşıyıcısı tək-tək şəxslər və yaxud şəxslər qrupu deyil, bütün xalqdır. Demokratik cəmiyyətlərdə hakimiyyətin obyektləri və subyektləri xalqın simasında cəmləşir. Referendum, seçkilər, nümayişlər demokratik cəmiyyətin ayrılmaz atributlarıdır. Demokratik dövlətlərin məqsədi cəmiyyətin bütün təbəqələrinin maraqlarını müdafiə etməkdir. Belə dövlətin əsas əlamətləri Azərbaycanın dövlət quruculuğunda öz əksini tapmışdır. Məlumdur ki, demokratiya daim inkişafda olan bir prosesdir və onun insan həyatının bütün sahələrində hakim olması üçün müəyyən bir tarixi dövrün keçilməsi zəruridir. Bəzən isə əldə edilmiş demokratik dəyərləri qoruyub saxlamaq onlara nail olmaqdan daha çətin olur. Demokratik dövlətlərin bütün fəaliyyəti xalqın rifahına xidmət edir, qanunla və hər şeydən əvvəl konstitusiya ilə nizamlanır.

Demokratik, hüquqi dövlət yaratmaq arzusu ilə yaşayan Azərbaycan xalqı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış Konstitusiya layihəsini 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsində qəbul etdi. Konstitusiyada xalqın dövlət hakimiyyətinin yeganə mənbəyi olması, dövlətin demokratik, hüquqi və dünyəvi olması, idarəçiliyin hakimiyyət bölgüsü əsasında təşkil olunması kimi təməl prinsiplər təsbit olunmuşdur.

Demokratiya və insan hüquqları bir-biri ilə sıx əlaqədədir. Demokratiya insan hüquqları sisteminə daxil olan vətəndaş, siyasi, iqtisadi, sosial və mədəni hüquqlar olmadan, bu hüquqlar isə demokratiya olmadan mümkün olmur.

Dövlətimizin əsas qanununda təsbit edilmiş insan hüquq və azadlıqları beynəlxalq standartlara uyğundur. Konstitusiyanın 12-ci maddəsi dövlətin ali məqsədinin insan hüquqlarını təmin etmək olduğunu müəyyən edir. Burada insan hüquqlarının Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq tətbiq edilməsi nəzərdə tutulmuşdur. Bundan əlavə, Konstitusiya müəyyən edir ki, insan huquq və azadlıqlarını gözləmək və onları qorumaq bütün hakimiyyət orqanlarının borcudur. Bu hüquq və azadlıqlar birbaşa qüvvədədir, onların həyata keçirilməsini heç kəs məhdudlaşdıra bilməz və heç bir müddəa onların ləğvinə yönəldilmiş müddəa kimi təfsir edilə bilməz.

Eyni zamanda, hüquq və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə edir və heç kəs öz hüquq və azadlıqlarından sui-istifadə etməməlidir. İnsan hüquqları yalnız digər insanların hüquqlarının və azadlıqlarının həyata keçirilməsinə təminat verilməsi və onların müdafiə edilməsi məqsədi ilə məhdudlaşdırıla bilər və bu məhdudiyyətlər yalnız qanunla müəyyən edilməli və demokratik cəmiyyətin zərurətindən irəli gəlməlidir. «Demokratik cəmiyyətin zərurətindən irəli gəlmə» anlayışına gəldikdə isə ilk növbədə müəyyən olunmalıdır ki, insan hüquqlarına və azadlıqlarına qoyulan məhdudiyyətin məqsədi qanunidirmi və ikincisi, məhdudiyyət məqsədi ilə tətbiq olunan vasitələr nəzərdə tutulan qanuni məqsədlərə mütənasibdirmi. İnsan hüquqları sahəsində Avropa presedent hüququ belə bir fikir söyləməyə imkan verir ki, insan hüquq və azadlıqları ölkənin tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulduğundan daha artıq dərəcədə məhdudlaşdırıla bilməz və bu məhdudiyyətlər həmin hüquq və azadlıqların mahiyyətini dəyişməməlidir.

İnsan hüquqlarının mühüm təminatlarından biri də onların toxunulmaz, pozulmaz və ayrılmaz olmasıdır. Bunun üçün hamı qanun və məhkəmə qarşısında bərabər olmalı, heç bir ayrı-seçkiliyə yol verilməməlidir. Həmin məqsədə nail olmaq üçün isə, dövlət hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə onun irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq təminat verir. Bu gün Azərbaycan çoxmillətli və çoxkonfessiyalı bir dövlət olmaqla bütün vətəndaşların ümumi və bölünməz Vətənidir.



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin insan hüquq və azadlıqlarına verdiyi böyük əhəmiyyətin təzahürü kimi, o, 22 fevral 1998-ci il tarixdə «İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında» Fərman imzalamışdır. Həmin Fərman Konstitusiyada təsbit edilmiş insan hüquqlarının təminatının gücləndirilməsi üçün dövlət siyasətinin əsas istiqamətlərini müəyyən etmişdir. Onun əsasında ölkə Prezidentinin sərəncamı ilə 1998-ci ilin iyun ayında təsdiq edilmiş insan hüquqlarının müdafiəsi sahəsində dövlət proqramı uğurla həyata keçirilir.

Azərbaycan Respublikası dünya dövlətləri birliyinin fəal üzvü olduğunu, insan hüquq və azadlıqlarına böyük diqqət yetirdiyini 200-dən artıq beynəlxalq müqavilələrin iştirakçısı olmaqla və həmin müqavilələrdən irəli gələn öhdəlikləri dönmədən yerinə yetirməklə təsdiqləyir. Dövlətimiz müvafiq beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq edir, onlara məruzələrini təqdim edir və onların tövsiyyələrinə diqqətlə yanaşır.

Azərbaycanın beynəlxalq təşkilatlarla əməkdaşlığı yalnız müqavilə öhdəliklərinin yerinə yetirilməsi ilə məhdudlaşmır. Ötən illər ərzində ölkəmizdə keçirilən bütün seçkiləri dəvət olunmuş beynəlxalq müşahidəçilər sərbəst izləyə bilmiş və təsdiqləmişlər ki, keçirilən hər bir seçki əvvəlkinə nisbətən demokratiyaya doğru atılan növbəti addım olmuşdur. Bu müşahidələr belə bir fikir söyləməyə əsas verir ki, Azərbaycanda keçirilən prezident, parlament və bələdiyyə seçkiləri, referendumlar beynəlxalq tələblərə uyğun olaraq ümumi, bərabər, ədalətli, gizli, azad, məsul və açıq keçirilmişdir.

Hüquqi dövlətdə insanların öz baxış, məslək və əqidəsini qanun çərçivəsində müdafiə və təbliğ etmək imkanları təmin edilir. Bu da siyasi partiyaların, ictimai birliklərin formalaşması və fəaliyyət göstərməsində, siyasi plüralizmdə, mətbuat azadlığında öz ifadəsini tapır.

Azərbaycan Respublikasında fikir, söz və mətbuat azadlığının inkişafına təminat yaratmaq dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Azərbaycan dövləti cəmiyyətin mütərəqqi inkişafının digər demokratik norma və dəyərlərlə yanaşı, söz və mətbuat azadlığının mövcudluğu ilə üzvi şəkildə bağlı olduğunu nəzərə alaraq ötən dövr ərzində bu sahədə mühüm addımlar atmışdır. Demokratik dövlətlərin təcrübəsindən istifadə etməklə söz və mətbuat azadlığının inkişafı üçün zəruri olan hüquqi-normativ qanunvericilik bazası yaradılmışdır. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin «Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında» 6 avqust 1998-ci il tarixli Fərmanı ilə ölkədə keçmiş hakimiyyətlərin kütləvi informasiya vasitələri üzərində tətbiq etdiyi dövlət senzurası ləğv olunmuşdur. Kütləvi informasiya vasitələrinin qeydiyyatdan keçdiyi Mətbuat və İnformasiya Nazirliyi 2000-ci ildə ləğv edilmiş və bununla da kütləvi informasiya vasitələrinin qanunvericiliyin tələblərinə uyğun olaraq demokratik şəkildə təsis olunması proseduru yaradılmışdır. Beləliklə, kütləvi informasiya vasitələrinin istifadəsinə və yayılmasına nəzarət edə biləcək dövlət mexanizmi aradan qaldırılmışdır.

Azərbaycan dövlətinin söz, fikir və mətbuat azadlığının inkişafı üçün apardığı siyasətin mahiyyətini ölkənin Avropa Şurası qarşısında götürdüyü öhdəlikləri, insan hüquqları ilə bağlı olan beynəlxalq müqavilələrin əsas prinsiplərini səmərəli şəkildə yerinə yetirmək və cəmiyyətin inkişafının tələblərinə uyğun olaraq yeni hüquqi normativ aktlar işləyib hazırlamaqla onların ictimai praktikada effektiv şəkildə həyata keçirilməsi təşkil edir.

Ölkə başçısı Heydər Əliyevin rəhbərliyi ilə görülən bir sıra qanunvericilik və icra tədbirləri nəticəsində siyasi partiyalar, qeyri-hökumət təşkilatları və kütləvi informasiya vasitələri haqqında qanunlar beynəlxalq standartlara uyğunlaşdırılmışdır. Bunun göstəricisi olaraq Azərbaycanda hazırda 42 siyasi partiya, 1500-dək qeyri-hökumət, o cümlədən 36 hüquq müdafiə təşkilatı, 40-dan artıq həmkarlar ittifaqı və 500-dən artıq kütləvi informasiya vasitəsi qeydə alınmışdır. Onların hamısı ölkəmizdə sərbəst fəaliyyət göstərir.

Ölkəmizdə insan hüquqları sahəsində atılan mühüm addımlardan biri də Şərq aləmində ilk dəfə olaraq ölüm cəzasının ləğv edilməsidir. 1993-cü ildən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin şəxsi təşəbbüsü ilə icrasına moratorium qoyulmuş bu müstəsna cəza növü 10 fevral 1998-ci il tarixli qanunla tamamilə ləğv olunmuşdur. Bununla hər bir insanın təbii və ayrılmaz hüququ olan yaşamaq hüququna əsaslı təminatlar verilərək insanın həyatdan məhrum edilməsi yolverilməz hesab olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin apardığı humanist siyasət nəticəsində 1995-ci ildən əfv və amnistiya təsisatları bərpa edilmişdir. Həmin vaxtdan ölkəmizdə 6 amnistiya aktı və 30 əfv fərmanı qəbul edilmişdir. Bu müddət ərzində amnistiya aktları 63.477 şəxsə tətbiq edilmişdir ki, onlardan 18.895 nəfəri azadlıqdan məhrumetmə yerlərindən azad olunmuşdur. Cənab Heydər Əliyevin imzaladığı əfv fərmanları ilə 2.909 şəxs bağışlanaraq müxtəlif cəzalardan azad edilmişdir.

İnsan hüquqlarının təminatı müvafiq müdafiə mexanizmləri olmadan mümkün deyil. Konstitusiyamız hər kəsə qanunla qadağan olunmamış üsul və vasitələrlə öz hüquqlarını müdafiə etmək hüququ verir. Bundan əlavə, hər kəs hüquqlarının pozulması ilə əlaqədar məhkəməyə müraciət edə bilər.

İnsan hüquqları və demokratiya sahəsində elmi araşdırmalar, təhlil və tədqiqatlar aparmaq məqsədi ilə Milli Elmlər Akademiyasında İnsan Hüquqları İnstitutu yaradılmışdır. Fəaliyyət göstərdiyi müddət ərzində İnstitut demokratik ideyaların təbliği baxımından çox işlər görmüşdür.

Ölkəmizdə tez bir zamanda, ardıcıl surətdə hüquqi islahatların həyata keçirilməsi, demokratik təsisatların və qanunun aliliyi prinsipinin möhkəmləndirilməsi, hüquqi islahatların aparılması sahəsində qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin qarşılıqlı fəaliyyətinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1996-cı il 21 fevral tarixli Sərəncamı ilə Hüquqi İslahat Komissiyası yaradıldı.



Azərbaycanda aparılan hüquqi islahatların əsasında inkişaf etmiş dövlətlərin hüquqi dövlət quruculuğu təcrübəsi, ümumbəşəri demokratik prinsiplər, Azərbaycan xalqının dövlətçilik tarixi və ənənələri dayanır.

İnsan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinə və qanunun aliliyinə nail olmaq üçün məhkəmə hakimiyyəti müstəqilliyinin təmin edilməsi labüddür. Ölkəmizdə həyata keçirilən hüquqi islahatların məqsədi və əsas ideyası da məhz bundan ibarətdir.

Hüquqi islahatlar hər şeydən əvvəl qanunların keyfiyyətinin yaxşılaşdırılmasına və icrasının təmin edilməsinə yönəlmiş kompleks fəaliyyətdir. Bu islahatların əsas elementləri qanunların və normativ aktların hazırlanması, hüquqi informasiya sisteminin genişləndirilməsi, məhkəmə və bütövlükdə hüquq mühafizə sisteminin islahatı, qanunların əhali arasında təbliği və öyrənilməsi kimi mühüm tədbirlərdən ibarətdir.

Əsas insan hüquq və azadlıqlarının və qanunun aliliyinin təmin edilməsi, hüquqi islahatların aparılması, habelə ölkəmizin Avropa təsisatlarına inteqrasiyası məqsədilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev «Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi haqqında» 1996-cı il iyunun 8-də Sərəncam imzalamışdır. Həmin Sərəncama əsasən Hüquqi İslahat Komissiyasına beynəlxalq standartlara uyğun «Konstitusiya Məhkəməsi haqqında», «Məhkəmələr və hakimlər haqqında», «Prokurorluq haqqında», «Vəkillər və vəkillik fəaliyyəti haqqında», «Polis haqqında», «Bələdiyyələr haqqında» və digər qanunların hazırlanması tapşırılmışdır.

Hüquqi İslahat Komissiyası tərəfindən hazırlanmış «Konstitusiya Məhkəməsi haqqında», «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikasının Qanunları ölkəmizdə məhkəmə-hüquq islahatları sahəsində atılan ilk, lakin çox vacib addım olmaqla müstəqil məhkəmə sisteminin yaradılmasına və fəaliyyət göstərməsinə imkan yaratmışdır.

Hüquqi dövlət – hüququn üstünlüyü, qanunun aliliyi, hamının qanun və müstəqil məhkəmələr qarşısında bərabərliyi təmin edilən demokratik dövlətdir. Belə dövlətdə insan hüquq və azadlıqları tanınır və təmin edilir, dövlət hakimiyyətinin təşkilinin əsasını qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin bölgüsü prinsipi təşkil edir.

Konstitusiyamızda bəyan edilmiş məhkəmə hakimiyyətinin müstəqilliyi «Məhkəmələr və hakimlər haqqında» Qanunda inkişaf etdirilərək öz real təminatını tapmış və insan hüquq və azadlıqlarının müdafiəsi məqsədi ilə məhkəmə hakimiyyətinin müstəqil fəaliyyət göstərməsinə hüquqi zəmin yaratmışdır.

Qanun yeni məhkəmə sistemini, onun təşkilati əsaslarını müəyyən edərək, məhkəmələrin və hakimlərin müstəqilliyinin təmin edilməsinə, vətəndaşların hüquq və azadlıqlarının məhkəmə müdafiəsinin genişləndirilməsinə, məhkəmə baxışının ədalətli və açıq keçirilməsinə, ümumiyyətlə məhkəmələrin fəaliyyətinin və hakimlərin statusunun beynəlxalq standartlara uyğunlaşdırılmasına yönəlmişdir.

Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirirlər. Məhkəmə hakimiyyəti konstitusiya, mülki, inzibati və cinayət məhkəmə icraatı vasitəsilə həyata keçirilir.

İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsinin dövlətin ali məqsədi olması, cəmiyyətin inkişafı, yeni iqtisadi münasibətlərə keçid prokurorluğun da funksiyalarına və statusuna yenidən baxılmasını zəruri etmişdir.

Keçmiş Sovetlər İttifaqında prokurorluq orqanları ölkədə demək olar ki, qeyri-məhdud səlahiyyətlərə malik idi və bu orqan qanunların icrasına nəzarət edilməsi adı ilə insan hüquqlarının pozulmasına rəvac verirdi. Hakimiyyətlər bölgüsü olmadığı bir şəraitdə prokurorluq hətta məhkəməyə, o cümlədən Konstitusiya Məhkəməsinə aid olan bir sıra funksiyaları da həyata keçirirdi.

Prokurorluqda həyata keçirilən islahatlar ölkəmizdə demokratik dövlət quruculuğu prosesinin və hüquqi islahatların tərkib hissəsi olmaqla, onun əsas məqsədi prokurorluğun səlahiyyətlərinin beynəlxalq standartlara uyğunlaşdırılması ilə yanaşı qanunçuluğun möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsindən ibarət idi.

Ölkə Prezidenti Heydər Əliyevin şəxsən bu məsələ ilə əlaqədar müvafiq göstərişlərindən sonra Konstitusiyanın, beynəlxalq hüquq normalarının tələblərinə cavab verən layihə hazırlandı və 1999-cu ilin dekabrında «Prokurorluq haqqında» Qanun qəbul edildi.

Yeni qanuna əsasən prokurorluğun fəaliyyətinin əsas prinsiplərindən biri vətəndaşların hüquq və azadlıqlarına əməl və hörmət edilməsidir. Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulmuş insan hüquq və azadlıqlarını məhdudlaşdıran prosessual hərəkətlərin prokurorluq tərəfindən həyata keçirilməsinə qanunla müəyyən edilmiş hallarda və qaydada yalnız məhkəmənin qərarına əsasən yol verilir. SSRİ-dən qalma və demokratik dövlətlərin prokurorluq orqanlarına xas olmayan səlahiyyətlər, o cümlədən dövlət və ictimai təşkilatlar, fiziki və hüquqi şəxslər tərəfindən qanunların eyni cür və dürüst icra edilməsi üzərində «ümumi nəzarət», islah-əmək müəssisələrində qanunların icrasına nəzarət, normativ hüquqi aktların qanuniliyinin yoxlanılması kimi səlahiyyətlər qanunla ləğv edilmişdir.

Hazırda prokurorluğun əsas fəaliyyət istiqamətləri ibtidai araşdırmaya prosessual rəhbərlikdən, səlahiyyətlərinə aid edilmiş cinayət işləri üzrə ibtidai istintaq aparmaqdan, dövlət ittihamının müdafiəsindən və məhkəmələr tərəfindən təyin edilmiş cəzaların məqsədinə nail olunmasında iştirak etməkdən ibarətdir. Keçmiş SSRİ dövründə cəza funksiyalarını həyata keçirən prokurorluq bu gün sözün əsl mənasında qanunun aliliyinin təmin edilməsinə xidmət edən quruma çevrilmişdir.

İnsan hüquqlarının müdafiəsi – stabil, demokratik dövlətin təməl daşı və bünövrəsi, hər bir vətəndaş cəmiyyətinin yetkinliyinin meyarıdır. Konstitusiyaya görə hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquq və azadlıqlarını müdafiə etmək hüququ vardır. Həmin hüququn real təminatı kimi «Vəkillər və vəkillik fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun qəbul edilməsi böyük əhəmiyyət kəsb edirdi. Bu qanun hər bir şəxsin məhkəmə prosesində, ibtidai istintaqda və təhqiqatda öz hüquq və mənafelərinin müdafiəsini həyata keçirmək üçün seçdiyi vəkilə müraciət etmək, tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüquqlarının təmin olunmasına, fiziki və hüquqi şəxslərin hüquqlarının, azadlıqlarının və qanunla qorunan mənafelərinin müdafiə edilməsinə, onlara yüksək keyfiyyətli hüquqi yardım göstərilməsinə imkan yaratmışdır.

Həmin qanun vəkillərin hüquqi statusunu müəyyən edir, ittiham və müdafiə tərəflərinin hüquq bərabərliyini təmin edir, hüquqi müdafiə üzrə konstitusion hüquqlara, məhkəmədə ədalətli araşdırma hüququna və vəkilin müstəqilliyinə təminat verir.

«Polis haqqında» Qanunun qəbul olunması hüquq mühafizə orqanları sistemində mühüm yer tutan polisin fəaliyyətini nizama salan qanunvericiliyin əsaslarının yaradılmasına və bu sahədə mövcud olan hüquqi boşluqların aradan qaldırılmasına yönəlmişdir. Vətəndaşların hüquq və azadlıqlarının təminatı, hüquqa zidd əməllərdən onların müdafiəsi dövlətin əsas funksiyalarındandır və qanunvericilik bu funksiyaları polis orqanlarının da üzərinə qoymuşdur.

Yeni qanuna görə polis Azərbaycan Respublikasının icra hakimiyyətinə mənsub olan vahid mərkəzləşdirilmiş hüquq-mühafizə orqanı olmaqla təyinatı insanların həyatını, sağlamlığını, hüquq və azadlıqlarını, dövlətin, fiziki və hüquqi şəxslərin qanuni mənafelərini və mülkiyyətini hüquqa zidd hərəkətlərdən qorumaqdan ibarətdir.

Yeni qanunvericilik şəxsin azadlıq, mənzil toxunulmazlığı hüquqlarının məhdudlaşdırılması, fiziki qüvvənin, xüsusi vasitələrin və odlu silahın tətbiqi ilə bağlı polis əməkdaşlarının hüquq və vəzifələrini ilk dəfə olaraq dəqiq müəyyən etmişdir. Polisin fəaliyyəti üzərində nəzarət mexanizmləri təsis edilmiş, polis əməkdaşlarının qanunsuz hərəkətlərindən və qərarlarından məhkəməyə müraciət etmək hüququ təsbit edilmişdir.

Həmin qanunlar «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Avropa Konvensiyasının müddəaları nəzərə alınmaqla hazırlanmış və qəbul olunmuşdur.

Cəmiyyətin demokratikliyi onun hər bir üzvünün, hətta dövlətin qanunlarını pozaraq cinayət törətmiş şəxslərin özlərinin də hüquqlarının qorunması ilə ölçülür. Odur ki, penitensiar sistemin islahatları ölkəmizdə həyata keçirilən geniş miqyaslı islahatlardan kənarda qala bilməzdi. SSRİ-nin «QULAQ» sisteminə xas olan, cəzanı insan şəxsiyyətindən üstün tutan köhnə təfəkkür və stereotiplərin aradan qaldırılması məqsədilə son illər ərzində Azərbaycanda cəzaçəkmə müəssisələrinin fəaliyyətinin yenidən qurulması üçün hüquqi və təşkilati tədbirlər həyata keçirilmişdir.

İslah əmək qanunvericiliyinin beynəlxalq standartlara və demokratik cəmiyyətin prinsiplərinə uyğunlaşdırılması üçün 2000-ci ilin iyul ayında Cəzaların İcrası Məcəlləsi qəbul olunmuşdur. Bu məcəllə hazırlanarkən BMT-nin 1955-ci il

«Məhkumların davranış qaydalarının minimum standartları», Avropa Şurası tərəfindən qəbul olunmuş «Avropa Penitensiar qaydaları» və digər beynəlxalq aktlar nəzərə alınmışdır.

Azadlıqdan məhrum edilmiş şəxslərin insan şəxsiyyətinə hörməti təmin edən şəraitdə, heç bir ayrı-seçkiliyə yol verilmədən saxlanılması təmin edilmiş, məhbusların hüquqları genişləndirilmiş, penitensiar müəssisələrin islah-təsir sistemində əsaslı dəyişikliklər baş vermişdir. Belə ki, məhbusların şəxsi təhlükəsizlik, vicdan və din azadlıqlarına təminat verilmiş, onların sağlamlığı və tibbi xidmət məsələləri yaxşılaşdırılmış, onlara bir sıra yeni imtiyazlar verilmişdir.

Qanun məhkum olunmuş şəxsin vəkillə senzura olmadan yazışmasına və görüşməsinə, istirahət, məlumat almaq hüquqlarına təminatlar verir.

İnsan hüquq və azadlıqlarına hörmət etməyən dövlət güclü və qüdrətli dövlət ola bilməz. Ölkəmizdə insan hüquq və azadlıqlarının təminatçılarından biri olan məhkəmə sisteminin fəaliyyət göstərməsi üçün qəbul edilməsi zəruri olan qanunlardan biri də Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsidir. Bu Məcəllə qanunla cinayət hesab olunan əməli törətmiş hər bir şəxsi işfa etməyə və cinayət məsuliyyətinə cəlb etməyin mümkünlüyünə, cinayət törətməkdə təqsiri olmayan heç kəsi cinayət prosesini həyata keçirən orqanların vəzifəli şəxslərinin və ya hakimlərin özbaşına hərəkətləri ilə qanunsuz şübhə altına alınmasının, ittiham və ya məhkum etməyin mümkün olmamasına, heç kəsin qanunsuz və ya zərurət olmadan prosessual məcburiyyət tədbirlərinə, insan və vətəndaş hüquq və azadlıqlarının digər məhdudiyyətlərinə məruz qalmamasına yönəlmişdir.

Bu Məcəllənin əsas fərqləndirici cəhəti cinayət törətmiş şəxslərin cinayət təqibinin yeni prosedurlarının müəyyən olunması və cinayət prosesinin bütün iştirakçılarının Konstitusiyada nəzərdə tutulmuş hüquq və azadlıqlarının təmin edilməsidir. Məcəllə həmçinin ittiham tərəfi ilə müdafiə tərəfi arasındakı qeyri-tərazlığı aradan qaldırmışdır.

Mülkiyyət hüququ, azad sahibkarlıq hüququ insanın ən mühüm hüquqlarındandır. Hələ alman filosofu Hegel söyləmişdi ki, yaxşı qanunlar dövlətin çiçəklənməsinə aparır, azad mülkiyyət isə onun parıltısının əsas şərtidir. Azərbaycanda mülkiyyət formalarının bərabərliyinə əsaslanmış, yeni iqtisadi münasibətlərə uyğun olan Azərbaycan Respublikasının Mülki və Mülki-Prosessual məcəllələri digər şəxslərin hüquqlarına xələl gətirmədən mülki dövriyyənin azadlığına onun iştirakçılarının bərabərliyi əsasında təminat verir, mülki hüquq subyektlərinin əmlak və şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyir, onların hüquqlarını və qanuni mənafelərini müdafiə edir, fiziki şəxslərin şərəfini, ləyaqətini, işgüzar nüfuzunu, şəxsi həyatının və şəxsi toxunulmazlığının müdafiəsi hüququnu qoruyur, mülki dövriyyəni təmin edir, sahibkarlıq fəaliyyətini dəstəkləyir, sərbəst bazar iqtisadiyyatının inkişafına şərait yaradır.

Məcəllələr bütün fiziki və hüquqi şəxslərə özlərinin hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədilə məhkəmə müdafiəsindən istifadə etmək hüququna prosessual təminatlar yaradır.



Həm Mülki Prosessual, həm də Cinayət-Prosessual Məcəllələri yeni məhkəmə quruluşuna uyğun olaraq müxtəlif instansiyalı məhkəmələrin arasında yaranmış münasibətləri tənzimləyir, ittiham və müdafiə tərəflərinin, məhkəmə prosesinin digər iştirakçılarının hüquq və vəzifələrini müəyyən edir, Azərbaycan Respublikasının Konstitusiyası ilə nəzərdə tutulmuş ədalət mühakiməsinin əsas prinsip və şərtlərinin həyata keçirilməsi qaydalarını və prosessual təminatlarını müəyyən edir.

Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq yerlərdə özünüidarənin və bələdiyyə işinin təşkili, onların səlahiyyətlərini, bələdiyyələrə seçkilərin keçirilməsini və bələdiyyələrin statusunu müəyyən edən bir sıra normativ hüquqi aktlar, o cümlədən «Bələdiyyələrə seçkilərin qaydaları haqqında», «Bələdiyyələrin statusu haqqında», «Bələdiyyə qulluğu haqqında», «Bələdiyyələrin maliyyə əsasları haqqında», «Bələdiyyələrin nümunəvi nizamnaməsi haqqında», «Bələdiyyə torpaqları haqqında» qanunlar qəbul edilmişdir.

1999-cu ilin dekabr ayında ölkəmizdə keçirilən ilk bələdiyyə seçkiləri zamanı 21 mindən artıq bələdiyyə üzvü seçilmiş, 2267 bələdiyyə təşkil olunmuşdur.

Bələdiyyələrin fəaliyyətini nizama salmaq üçün müvafiq təşkilati və digər tədbirlər həyata keçirilmişdir. Vətəndaşlara yerli əhəmiyyətli məsələlərin müstəqil və sərbəst şəkildə həll edilməsi hüququnu həyata keçirmək imkanı yaratmaq məqsədilə bələdiyyələrin statusunu və fəaliyyətini nizamlayan 20-dək qanun və əsasnamələr qəbul edilmişdir.

**Son illərdə hüququn demək olar ki, bütün sahələrini nizama salan yüzlərlə qanunların, həmçinin 20-dək məcəllənin qəbul edilməsi dövlət orqanlarının, o cümlədən məhkəmələrin, ədliyyə və hüquq mühafizə orqanlarının statusunu öz fəaliyyət istiqamətlərini müəyyən etməklə hüquqi dövlətin demokratik cəmiyyətdə zəruri olan qanunvericilik bazasını yaratmış, insan hüquq və azadlıqlarının müdafiəsinə real təminat vermişdir.**

**Müstəqillik dövründə respublikamız dünya ölkələri sırasında layiqli yerini tutmuş, 30-dan artıq Avropa Şurası sənədlərinə qoşularaq ümumavropa hüquq məkanına inteqrasiya olunmuşdur. Azərbaycanda demokratikləşmə və insan hüquqlarına riayət istiqamətində aparılan məqsədyönlü siyasətin məntiqi nəticəsi kimi, ölkəmiz 2001-ci il yanvarın 25-də Avropa Şurasına tam hüquqlu üzv qəbul edilmişdir.**

**2002-ci ilin yanvar ayında Azərbaycan Respublikası "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasını və onun 1, 4, 6 və 7 saylı Protokollarını ratifikasiya etmişdir. Bununla ölkə vətəndaşlarının hüquq və azadlıqlarına daha bir təminat verilmişdir. Ölkəmiz bununla həm də İnsan hüquqları üzrə Avropa məhkəməsinin yurisdiksiyasına daxil olmuşdur. Azərbaycanın Avropa Şurasına qəbulundan cəmi bir il keçdikdən sonra hüquqlarının pozulduğunu iddia edən hər bir Azərbaycan vətəndaşı öz hüquqlarının bərpası üçün bütün dövlətdaxili prosedurlar tükəndikdən sonra Avropa məhkəməsinə müraciət etmək hüququ əldə etmişdir. Mə-**

**lumdur ki, bu konvensiyanı 1950-ci ildə qəbul etdiklərinə baxmayaraq, öz vətəndaşlarının belə bir hüququnu Niderland Krallığı yalnız 10 ildən sonra - 1961-ci ildə, Böyük Britaniya 16 ildən sonra - 1966-cı ildə, İtaliya 23 ildən sonra - 1973-cü ildə, Fransa isə otuz ildən də artıq müddətdə - 1981-ci ildə tanımışdı. Beləliklə, qabaqcıl Avropa ölkələrinin on illər ərzində qət etdiyi bu yolu Azərbaycan möhtərəm Heydər Əliyevin rəhbərliyi altında cəmi bir ilə keçmişdir.**

**İnsan hüquqlarının daha səmərəli müdafiəsi, ümumavropa problemlərinin həlli, ümumi məqsəd və prinsiplərin həyata keçirilməsi, parlamentarizmin inkişafı məqsədilə Avropa Şurası ilə Azərbaycan arasındakı əməkdaşlıq günügündən inkişaf edir. Avropa Şurası Parlament Assambleyasının yüksək tribunasından respublikamızın problemləri, o cümlədən Ermənistanla Azərbaycan arasında Dağlıq Qarabağ münaqişəsi, bir milyondan artıq Azərbaycan vətəndaşının hüquqlarının pozulması barədə həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması, Vətənimizin milli maraqlarının qorunması sahəsində Heydər Əliyev siyasi məktəbinin yetirməsi, Milli Məclisin üzvü hörmətli İlham Əliyevin başçılığı altında Azərbaycan parlamentinin nümayəndə heyəti tərəfindən məharətlə istifadə edilmişdir. Azərbaycanda insan hüquq və azadlıqlarının müdafiəsi üzrə qısa müddət ərzində görülmüş tədbirlərin Avropadakı əks-sədasının nəticəsidir ki, ölkəmizin Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri hörmətli İlham Əliyev Avropa Şurasının Parlament Assambleyasının vitse-prezidenti, AŞ PA-nın büro üzvü seçilmişdir.**

**2002-ci il ilin mart ayında "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanunu qüvvəyə minmişdir. Ombudsman təsisatı demokratik dövlətlərin hüquq sistemində mühüm rol oynayaraq, dövlət orqanları, idarəçilik sistemi ilə vətəndaşlar arasında yarana bilən ziddiyyətlərin, mübahisəli halların məhkəmədənkənar həlli üçün fəaliyyət göstərən bir qurumdur. İnsan hüquqları üzrə müvəkkil ölkədə insan hüquqlarının müdafiə olunması vəziyyətini öyrənir və təhlil edir. 2002-ci ilin iyul ayında Azərbaycanın ilk ombudsmanı seçilmişdir. Respublikanın İnsan hüquqları üzrə müvəkkili qısa müddətdə zəruri təşkilati tədbirləri həyata keçirmiş və artıq fəaliyyətə başlamışdır.**

**İnsan hüquqlarının real müdafiəsinin növbəti mərhələsi Konstitusiyaya dəyişikliklər edilməsi barədə 2002-ci ilin avqust ayında keçirilmiş referendum oldu. Konstitusiyada edilmiş bu dəyişikliklərdə Azərbaycan Respublikasının Avropa Şurası qarşısında üzərinə götürdüyü öhdəliklərdən, Azərbaycanın «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Avropa Konvensiyasına qoşulmasından, referendumun keçirilməsinin təkmilləşdirilməsindən irəli gələn, Azərbaycan Respublikasının Prezidentinin və Milli Məclisə seçkilərlə bağlı və sair məsələlər öz əksini tapmışdır.**

**Ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş konstitusion dəyişikliklərdən biri də vətəndaşların Konstitusiya Məhkəməsinə bilavasitə müraciət etmək hüququnun təsbit edilməsi oldu. Artıq hər kəs onun hüquq və azadlıqlarını pozan qanunvericilik və icra hakimiyyəti orqanının normativ aktlarından, bələdiyyə və məhkəmə aktlarından qanunla müəyyən edilmiş qaydada Konstitusiya Məhkəməsinə pozulmuş insan hüquq və azadlıqlarının bərpa edilməsi məqsədi ilə şikayət verə bilər. Məsələn, məhkəmə müdafiə vasitələri tükəndikdən sonra, yaxud məhkəməyə müraciət etmək hüququ təmin edilmədikdə, habelə konstitusiya hüquqlarının məhkəmələr vasitəsilə hüquqi müdafiəsi ərizəçiyə mühüm və bərpaedilməz ziyan vurulmasının qarşısını ala bilmədikdə vətəndaşın verdiyi şikayətlərə Konstitusiya Məhkəməsində baxıla bilər. Bu qaydanın müəyyən edilməsi insan hüquq və azadlıqlarının müdafiəsi sisteminin daha bir təminatıdır.**

**İnsan hüquqlarının hər bir şəxsin həyatında və cəmiyyətdə reallığa çevrilməsi amalı ilə yaşayan Azərbaycan dövlətinin növbəti addımı respublikamızda insan hüquq və azadlıqlarının həyata keçirilməsini "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyaya uyğunlaşdırmaq məqsədilə 2002-ci ilin dekabrında "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Konstitusiya Qanununun qəbul edilməsi oldu. Bu qanunda məhdudlaşdırılması qadağan olunan insan hüquqlarının dairəsi və şəxsin tutulmasına, həbsə alınmasına və ya azadlıqdan məhrum edilməsinə qoyulan məhdudiyyətlər müəyyənləşdirilmişdir.**

Ölkəmizin hüquq sistemindəki bu dəyişikliklər hər bir Azərbaycan vətəndaşının hüquq və azadlıqlarının daha dolğun təmin edilməsinə yönəlmişdir. Belə ki, müasir dövrdə dövlətin tərəqqisi «insan meyarı», yəni həyatın keyfiyyətinin, şəxsiyyətin dövlət tərəfindən təmin olunan vəziyyətinin ön mövqeyə çəkilməsi ilə ölçülür. Şəxsiyyətin azadlığı, insanların rifah səviyyəsi, şəxsin özünü cəmiyyətdə təsdiqetmə imkanı, hüquqların olması – «insan meyarının» bu və digər tərkib hissələri onu dövlətin inkişafının qiymətləndirilməsinin əsas ünsürlərinə çevirir.

Tarixin heç bir dövründə cəmiyyətimiz bugünki kimi sürətli dəyişikliklərə uğramamış, insan faktoru belə aktual, birinci dərəcəli məsələ kimi gündəmə çıxarılmamışdır. Məhz hər bir vətəndaşın azad cəmiyyətdə yaşaması, hüquq və azadlıqlarının müdafiə olunması kimi ülvi məqsədlərin reallaşması həyata keçirilən islahatların mahiyyətini təşkil edir.

Bu gün tam əsasla demək olar ki, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə qəbul edilən mütərəqqi qanunlar, həyata keçirilən təşkilati və praktiki tədbirlər ölkəmizdə demokratik, hüquqi dövlətin möhkəm əsasını yaratmışdır.

Ölkəmizin hüquq sistemi, insan hüquq və azadlıqlarının müdafiəsi vəziyyəti bu gün dünya, Avropa standartlarına cavab verir. Eyni zamanda demokratiyanın inkişafı, insan hüquq və azadlıqlarının təminatının daha da gücləndirilməsi, qanunun aliliyinin təmin edilməsi sahəsində dövlətimiz öz nailiyyətlərini ardıcıl olaraq artırır.